# "ŞƏHİD ÜRƏYİNDƏN KEÇƏN MİSRALAR..."

## *Bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq yazılmış poema*



*Nizami MƏMMƏDZADƏ*

*(Əvvəli ötən sayımızda)*

Min sevgi nəğməsi mənə güc verir,
Bir ovuc torpağa şeir qoşuram.
Əsgərin dilində oxunanda o -
Mərdi-meydanda mən, hər an coşuram.

Ömrümün üstünə min ömür gəlir,
Hər şəhid qisası alınanda bil.
Ay Ana, gözünü sən də sil daha -
AZADLIQ oxuyur hər oba, hər el!

Dağların üstündə tonqallar yanır,
Hər kolun dibində gizlənir düşmən.
Koroğlu nərəsi, Babək qılıncı,
Onları qorxudur hər an, yenidən.

Ağlama, ay Ana! Gəlib çıxmışam!
Sənin əllərini öpəcəyəm mən.
Üstünə gül-çiçək, sevgi yağışı -
Torpağın ətrini səpəcəyəm mən!

Gəlmişəm, güllələr oynaşan yerdən,
AZADLIQ xəbəri mənim ilk sözüm!
Yadıma düşürdün səngərdə hərdən,
Məktub əvəzinə, bax gəldim özüm!

Vüqarlı dağlarım gözüm işığı,
Mən o ucalıqdan gəlmişəm, Ana!
Sevdiyim bu torpaq daha mənimdir -
Onu düşmənlərdən almışam, Ana!

Duman bu dağlara çökəndə gəldim,
Çox şükür, düşmənlər qaçanda bildim!
Dağlarda əbədi qalmaq, nə gözəl -
Babam bu dağları biçəndə gəldim.

Qəlbimə çəkilən dağı unutdum,
Üzü bəri baxan dağları gördüm.
Allahım, nə gözəl yuxu görəndə,
İndi gözəlləşən çağları gördüm.
* * *
Öt ey, Xarıbülbül - tənha bir gülüm!
Sevinci ömrümə bu gün cala sən!
Tarixin şanlı bir sözünü bildim,
AZADSAN ay Şuşam, həmin qalasan!

Dünəndən ayrılıb bu günə gəldim,
Ay Ana, gülümsər üzünü gördüm.
Mən bu ucalıqda hər an yüksəldim,
Babamın bu Cıdır düzünü gördüm.

Daha düşmənlərdən bezmişəm, inan!
Əlimdə sıyrılmış qılınc, hazıram!
Bu mənim tarixim, bir igid kimi,
Ay Ana, mən onu qanla yazıram!

Ah, necə yaraşır bizlərə ZƏFƏR!
Ölüm nəğməsini unutdum indi!
Bilirəm, qüvvətli zabitəm, əsgər!
Bu Vətən sənindi, gələcəyindi!

Körpə səslərinə layla yaraşır,
Anamız bayatı oxuyur hər an!
İgid düzdən keçib, dağları aşır,
Yazır zirvələrə: "Can Azərbaycan!"

Sevgimin şah sözü Vətənim olub,
Ona çox yaraşan bayrağım da var!
Bir zaman inləyən torpaqlarımda,
Bax, indi ətirli gül bağım da var!

Bu çağlar bizlərə ZƏFƏR bağışlar,
Oyan, ey gəncliyim - ölməz şəhidlər!
Düşmənin qaçdığı yollara bir bax,
Onları hey qovub qəhrəman əsgər!

Sevincin səsi də bizə QƏLƏBƏ!
Dünya sizdən deyir, PUALAR uçur!
Bu mərdi-meydanda gur səsinizlə -
Düşmənlər hey qorxub, səngərdən qaçır!

Ey igid qardaşım, ey nakam bacım!
Sənin baxışınla dünya oyanır!
"Komandan" sözü də daha şah tacım,
Hər oğlum, qızım da ona inanır!

Qarabağ mahnıda, sözdə səslənir,
Daha öz adını unudub yağı!
Güllələr uçanda onun üstünə,
Unudub qorxudan solu, həm sağı!
* * *
Hər sevgi mahnısı bizə ruh verdi,
"Şuşanın dağları" oxunur hər an.
Daha da azalıb ürəyin dərdi,
Yaşa Azərbaycan! Can Azərbaycan!

Ali Baş Komandan, Prezidentimiz,
ZƏFƏRli yolları füsunkar edib.
Könlümün rübabı, kamanı, tarı,
QƏLƏBƏ əzmiylə fədakar edib.

Vaqif babamızın durnası uçur,
Onun məqbərəsi bizə yadigar!
Burda Ulu Öndər sözünü deyib,
Burda onun qızıl kəlamları var!

Ay Ana, ay Vətən, unutma məni,
Kövrək hisslərinlə ziyarətə gəl!
Şəhidəm, başdaşım bir süngü təki,
Saplanıb min azğın düşmənə, sən bil!

Eşqim də bir nakam ömürlər kimi,
Heç zaman ayrılmaz sizdən, ay Ana!
Düşmənlər hey qorxub "Dəmir Yumruğ"un -
Şaqqıltı səsindən qaçır hər yana!

Ömrümüz doludur uğurlu günlə,
Sizləri sevincə qərq edər, inan!
Gözəl Azərbaycan, vəfalı əsgər,
Ali Baş Komandan! Bizdəki - inam!

Demə, biz ölmüşük, torpaqda yatan -
İgidik, qəhrəman Vətən övladı!
Baxın, yollar boyu sıralanmışıq,
Xatirə daşında hər igid adı!
* * *
Borçalı yolları uzaqdadırmı?
Gəlin, birlikdə biz gedək Vətənə!
Siz bilin, orda da yatıb şəhidlər,
Gül-çiçək toplanıb mərdə-mətinə!

Vətən nəğmələri şəhid eşqinə,
Hər il "Anım Günü" səslənir eldə!
"Yanıq Kərəmi"ni çalır aşıqlar,
QƏLƏBƏ səslənir incə bir teldə.

Şəhidin evindən uzaq deyiləm,
Qələbə səsindən mən oyanmışam.
Sözümüz söz olub, ANDımız kimi,
Düşmənin üzünə mərd dayanmışam!

Qəmli ürəklərin şahidi mənəm,
Yazıram, mən sənin hüsnünə şeir.
Gözümdən tökülən yaş qurumadı -
Sanki mənə, "Şəhid yaşasın!" - deyir.

Mənim mərd əsgərim, gizir, zabitim -
Bu torpaq uğrunda dözdü zillətə.
Onların arzusu, ümidi vardı -
Min sevinc bəxş etsin bizim millətə.

Ali Baş Komandan-"Dəmir Yumrug"um! -
Ona bir yenilməz güc-qüvvət verdi.
Müqəddəs Qarabağ ucalığını,
Şəhid görmədisə, analar gördü!
* * *
Ürəyim "Borçalı!"- deyib kövrəlir,
Hər daşı, qayanı unutmaram mən.

Ömür dediklərin bir tarix yolu,
Bilirəm, bizləri unutmaz Vətən!

Yanvarda sizlər də gəlin Bakıya,
Bu ömrün əlçatmaz yolları vardır!
Bu Qanlı Yanvarın sirrləri çoxdur,
Mənim həsrətim də uzaq yollardır!

Anamın sözləri ürəkdən gəlir,
Eşidin, a dostlar dediyi sözü:
"Qanlı Yanvar, dağ çəkibdir sinəmə,
Hələ sağalmayıb süngü yarası.
Hər il dərd çəkərək yola çıxıram,
Tiflis-Bakı, Bakı-Tiflis arası!

Anamın dediyi sözlər tarixdir,
Ağbirçək kəlamı kövrəldir bizi.
Daha dərdimizdən nişan da yoxdur,
Gül-çiçək bürüyüb yolu, həm izi!

Nənəmin də sir-sifəti qaralıb,
Əllərinə xına yaxmır bir nənəm!
Şəhidlərə ağı deyib ağlayır,
Ağlayanda danışmıram, dinmirəm!

Heç soruşmur, ölən kimdir, qalan kim?
Dərdi sinəsinə sıxıb ağlayır.
İllər keçib nənəm yenə qəmlidir,
Evimizdə neçə şəkil saxlayır.

Artıq qocalıbdır - ömür vəfasız,
Daha imkanı yox, sual verməyə,
Tiflis-Bakı, Bakı-Tiflis arası -
Daha imkanı yox, söz çevirməyə!

Şəhidlər yatan yer - Fəxri Xiyaban,
Bakının tarixi ziyarət yeri.
Şəhid anaları fərq etmir daha,
Bu oğullar onun - mərdlərdən biri!

Hər dəfə gördüyüm balam - ömrümdür!
Hər qəbir daşına bir nişan qoyur.
Hər nağıl deyəndə Cəsur nəvəmə,
QƏLƏBƏ soraqlı sözlər soruşur!
* * *
34 il ötüb - 20 Yanvar,
Sızıldayan yaram sağalmır nədən?
Bu tarix məni də yaman göynədir,
Hələ dərd söyləyir bu Torpaq, Vətən!

Sizin al qanınız yerdə qalammaz,
Şəhidlər, bu il də bağışlayın siz!
Vətən darda olmaz, onun gücünü,
Sözümüz sözdür - siz, görəcəksiniz!

O günlər gələcək, yaqin bilin siz,
Vaxt gələr QƏLƏBƏ eşidən kimi,
Gələcəm əlimdə çiçəyim, gülüm,
Sərəcəm mən onu ayağınıza!

Xoş sözlər deyəcəm Vətən naminə,
Minnətdar olacam güclü, möhtəşəm,
Azərbaycan adlı dayağımıza!
Uca zirvədəki bayrağımıza!

Unutmaz yaddaşım heç zaman səni,
İstər Bakı olsun, istər Borçalı.
Getdiyin yollara çiçək səpmişəm,
Səni unutmaz bil, şəhid Xocalı!

Orda igidlərim yatıb, oyanır -
Düşmənə min lənət söyləyir dilim.
Könül tərənəsi həsrətdən yanır,
Uçur göyərçintək, Vətənə meylim!

Oğul istərəm mən, duyğusu kövrək,
Onu bu şahanə torpağa çəksin!
Torpağın ruzisi necə ləzzətli -
Onun bolluğunu bilənlər əksin!

Ata da, Ana da, bacı-qardaş da,
Ötən fəsilləri yola salıblar.
Baxın, ey insanlar, bilin sizlər də,
Şəhidlər necə bir torpaq alıblar!

Onlardan yadigar qalıbdır bizə,
Hər dəfə fəxr edir, həm oğlum, qızım!

Ömür yollarında baş əydik sizə,
Bu idi varlığım - çörəyim, duzum!

Səadət kəlməsi bizə yaraşır,
Hər zirvə uğrunda döyüşüb aldıq!
Meşədən keçəndə dağları aşdıq,
Baxın, bizlər belə QƏLƏBƏ çaldıq!

Qalmayıb torpaqda daş da, kəsək də,
Hər qaya köksündə bir güllə izi!
Sizləri zəmanə necə unudar?
Ürəyim kövrəlib, sevirəm sizi!

Dünya bir mürəkkəb oyun oynayır,
Aləmlər qarışır, dağ parçalanır.
Ömrüm dolandıqca, gödəlir sanki,
Ürək ötən günü, ayları anır.

Şəhid ürəyindən keçən misralar,
Borçalı elimi ev-ev dolaşır!
Anam da qəbrini ziyarət edib,
Torpağım uğrunda o da alışır.

Hərdən ağı deyir, tufan qoparır,
Şəhidlər eşqinə yanıb ağlayır.
Əlində gül-çiçək, bayraq aparır -
Şəhidin adıyla sovqat bağlayır.

Ağılar söyləyən nənəmə yazıq,
Ürəyim hönkürür, sinəm söz deyir.
Qəlbimi tufana döndərir, neylim!
Şəhidin bəxtinə yazdığım şeir.

Ürəyə qəm-kədər dolanda istək,
Şəhidlər ruhuna dualar söylər.
Acığı tutanda nənəm dinəntək,
Düşmən arxasınca yamanca söyər!

Dərdi sinəsindən çıxarıb babam,
"Dəmir yumruğu"yla qayanı yarar.
Döyüşkən əsgərim, igid hardadır?
Gündüz də, gecə də onu axtarar!

Şəhid ürəyini oxuyan nənəm,
Soruşar hər gəlib, gedəndən vaxtsız!
Deyin ki, hey onu axtaran mənəm,
Qəlbi hey çırpınıb söyləyən baxtsız!

Şəhidim, ay nəvəm! Harda qaldın sən?
Yığdığım gül-çiçək yolunda soldu.
Nənəyəm, həsrətdən yanıb-qocaldım,
Bilmirəm, getdiyin necə bir yoldu?

Anamın gözləri yola baxanda,
İnanmır o, sənin şəhid adına!
Əlində yaylığı, qara paltarı -
İnan ki, yaraşmır qəmli qadına!

Anam da dualar deyər şəhidə,
Ürəyindən keçən misranı söylər.
Onun ürəyi də yaman doludur,
Şəhidlə birlikdə ağlayır göylər!

Sənə gül-çiçəkli dağlar yaraşır,
Vətənin çal-çağır düzləri gözəl!
Sənsən bu torpağın əzəl sakini,
Sənə tarix yazıb - şeirlə, qəzəl!

Yoxluğun anaya əzablar verib,
Dərd-qəmi düşmənə verə bilməyib!
Gözləri qəbrinə dikilən qadın -
Gözünün yaşını nədən silməyib?

Şəhid ürəyinin kədəri, qəmi,
Yenidən yaşamaq həsrəti duyur.
Yatdığı qəbirin görkəmi ilə,
Başqa bir həyata o, qədəm qoyur.
* * *
Şəhid ürəyindən keçən misralar,
Dəftərə yazdığım tarixdir, bilin!
Bilirik qəhrəman, Vətən oğludur,
O, mərdlik rəmzidir obanın, elin!

Hər igid sözləri arzu, ümiddir,
Mübariz döyüşdə ürəkləri var!
Yaşamaq istəyi ona daha xoş,
Döyüşdə ilahi diləkləri var.

*(Davamı 15-ci səhifədə)*

*(Əvvəli 14-cü səhifədə)*

"Mənim başdaşımı təzələyərsiz,
Dünyaya baxaram yenidən bir də!
Qəm-kədər hissimi, sevinc duyğumu,
Duyaram yenidən hər gün qəbirdə!

Dünyaya eşqimi yayaram, Ana -
Aman deyərəm mən, ölümə bir də!
Ziyarət edərəm şəhid qəbrini,
Ölümü gətirməm, dilimə bir də!

Sahilə tələsən gəmi olmuşam,
Dolan gözlərimin nəmi olmuşam,
Gecənin, gündüzün şamı olmuşam -
Bu səssiz dünyaya şahid qəbirdə!"

Analar belədir, oğul dərdinə -
Gecə də, gündüz də dözəmmir, bilin!
İgidlər gediblər mərdi-mərdanə -
Adını tarixə yazmağa elin!

Qarabağ bizimdir, deyib babalar,
Oğullar böyüyüb onu aldılar.
Döyüşdə Vətəni ucaltmaq üçün,
Al-qana boyanıb ZƏFƏR çaldılar!

Analar, ürəyim sizlə döyünür,
Bilmirəm, ömrümün harasındayam?
Şuşanın, Xankəndin adı tarixə -
Daha yazılıbdır - mən də ordayam!

Hücum əmri məni heç də sındırmaz,
Bilin ki, düşməni qorxutdum birdən!
Koroğlu meydanda hayqıran kimi,
Düşməni it kimi qovdum səngərdən!

Ölüm şəccərəsi yazdım düşmənə!
Ölüm akkordu da çatıbdır sona!
Hər kəndi, şəhəri alanda bilin,
Bayrağım zirvədə duracaq, Ana!

Dünyamın bu günü əbədiyyətdir,
Səadət ulduzu qonub başıma.
ZƏFƏR bayrağımın Ayı, Ulduzu -
Güc verib, yaraşır gənc qardaşıma!

Aləmə səs verdik, biz səmalarda,
Düşmən səngərinə vəlvələ saldıq.
Qalacaq yerimiz olmasa da bil,
Ay Ana, qardaşıq, bir evdə qaldıq.

Tale yolumuza gün şəfəq saçdı,
Doğdu üzümüzə gülümsər həyat!
Dağlara, düzlərə qonmaq üçün biz -
Allahım bizlərə verdi cüt qanad!

Həyatda yaşadıq, ey Ana Vətən!
İşğal altda olan torpağı alaq!
Göylərə ucaldı ZƏFƏR səsimiz -
Biz qoşa qanadla göyə ucalaq!

Bizi imtahana çəkdi bu torpaq,
Mən yandım, yaxıldım düşmən əlində.
Fəqət, gücüm ilə qurduğum səngər,
Düşməni çar-naçar etdi əlimdə!

Düşmənin adını bilməsəm olar,
O, mənim gücümün dadını bilsin!
Bilinsin qoy mənim vurduğum zərbə -
Təki onun adı tamam silinsin!

Torpaq sevgisinə çatmaz bir qüvvə,
Vəfasız dünyanın sözü yalandır!
Düşmən Xocalını oda qaladı,
Şəhidlər pozmadı içdiyi ANDı!

Döyüş meydanında mübariz olduq,
ANDımın hər sözü igid Mübariz!
Sevgimin şah sözü həm Vətən oldu,
Həm də Torpaq adlı ər şəhidimiz!

Biz yazdıq zirvəyə, söz: "Azərbaycan!"
Şəhid ürəyindən keçən misradır.
Ali Baş Komandan yazdı durmadan:
"Yenilməz - "Qarabağ Azərbaycandır!"

Ali Baş Komandan, əmrinə hər an,
Mən də əsgər kimi bil, AND içmişəm.
Səndəki sevgimin od-alovuyla,
Qayanı, sərt daşı xıncıb keçmişəm.

Qəlbimin ən ali fikirlərinə,
Hey sadiq qalaraq Şuşaya qalxdım.
Bilirəm, getdiyim bu yolda bəzən,
Düşmən səngərinə güllələr çaxdım.

Keçdiyim yollarda qorxum olmayıb,
Düşməni gördükcə, mətin olurdum!
İnan mənə Ana, xeyir-duasız -
Keçdiyim keçidlər çətin olurdu.

Gecə də, gündüz də yata bilmədim,
Sonsuz üfüqləri indi görürəm.
Baxın, ey dostlarım, qarşıma çıxan,
Düşmən silahımdan qaçır, bilirəm!

Sərt yoxuşu qalxıb düzə çatanda,
Mən ordan boylanıb Şuşaya baxdım.
Asan yollar çətin olmasa da, bil -
"Dəmir Yumruğ"umu düşmənə çaxdım.

Qaranlıq gecələr aydınlaşanda,
Şuşanı, Xankəndi görüb ucaldıq.
Dağları, daşları bilki aşanda,
Düşündük, nəhayət, biz də bac aldıq!

Ay Vətən, düzündə işıq olacam,
Hüsnünə yaraşan bayraq bizimdir!
Bu yurda yaraşan bir tac alacam,
Daha bildirim ki, torpaq bizimdir!

Komandan səsi də güc verdi bizə:
"Əziz Şuşa! Daha bilki Azadsan!"
Əziz Şuşa! Daha bizlər qayıtdıq!
Sən bizə güc verən, güclü qanadsan!

Qayalar dibində ilantək yatan,
Hər düşmən sinəsi yaralanıbdır.
Şuşamız alınıb, onun uğrunda,
Mərd əsgərlərimiz sıralanıbdır.

Əlində QƏLƏBƏ bayrağı duran,
İndi o dağlara əsgər düzülüb.
Sevincin, məlalın gücü bizdədir!
Düşmənin ümidi daha üzülüb!

Şairtək sevgimin hüdudu yoxdur,
Sənin qəbirinə əyilir başım.
Əllərim fəxr edir, şücaətinlə,
Odur mənim sənə sevgim, baxışım.

Ölmərəm eşqimlə sizdən yazınca,
Vətən nəğmələrim sizə ehtiram!
Şəhidim, dağlarda ucalıram mən,
Mən ordan sizə gül, çiçək atıram!

Şəhidəm, ay Ana, ömrün anıyla -
Bilirəm, bağlısan Vətənə, elə!
Könlümün həmdəmi sənsən, ay Ana!
Kaş, oğlun davadan evə sağ gələ!

Diz üstə çökərək, torpaq öpərəm,
Yanar alqışımın alov səsi də!
Əsgər gəlişinə güllər səpərəm,
Budur taleyimin nur pərdəsi də!

Bir qurban kəsərəm, Vətən naminə,
Od-alov içindən qayıtsın, oğul!
Çox şükür, qəlbimdən dualar keçir,
Mənə düşmən olan ey yağı, dağıl!

Şəhid oğlunu da görməyən Ana,
Qəbrin başdaşını tapa bilməyib.
Dərd-qəmdən saçını hörməyən Ana,
Gözünün yaşını heç vaxt silməyib!

Mənim gözlərimdən yaş süzülür, ah -
Bir şəhid durumu ağır, yaralı.
İnanın, düşünməm, şəhidim ölər,
O, daim yaşayan övlad olmalı!

Bir qəbir yanında Ana çökmüşdü,
Göz yaşı dizini yaralamışdı.
Bilirdi bir azğın yağı döyüşdə,
Sevimli oğlunu paralamışdı!

Dağla sinələri, ay "Dəmir Yumruq",
Vətən nəğməsini oxusun əsgər!
Ali Baş Komandan əmri yazılsın,
Düzülsün Ordumuz, açılsın səhər!

Üfüqdə parlasın Günəş telləri,
Sevinc sədasını səsləndir, Vətən!
Çəməndə gül-çiçək topla el qızı,
Qarşıla Ordumu sən də sevincdən!

Bayrağım zirvədə hey dalğalanır,
Qarabağ elləri Azərbaycandır!
Ali Baş Komandan onu seyr edir,
Onun mərd duruşu şöhrətdir- şandır!

* * *

Poema yazdım mən, şəhidlərimə,
Qəlbim tüğyan etdi, kədər-ah kimi!
Sonsuz üfüqləri seyr etdim hərdən,
Mənə əhsən dedi Göylər Hakimi!

Sevinc hisslərim də məni ucaltdı,
Buludlu göylərdən yağış süzüldü.
Bu talc məni də yaman qocaltdı,
Poemam əsgərtək sözlə düzüldü.

Ağlaya-ağlaya şeir yazmışam,
Şair qələmimin sözüdür bunlar!
Daha düşmənlərdən bezmişəm tamam,
Məni Vətən üçün bura qoyublar!

Bəxtimin kamanı çalıb-çağırır,
Sinəmdə misralar dolub-boşalır.
Fikirim, düşüncəm məni hey yorur,
Dediyim sözlər də yadigar qalır!

Şəhidim göylərdə uçan qaranquş,
Bu torpaq qoynuna çağırır onu.
Onun ZƏFƏR səsi sanki bir alqış -
Bayrağım zirvədə döyüşün sonu!

# "ŞƏHİD ÜRƏYİNDƏN KEÇƏN MİSRALAR..."

Ömür yollarımız güllü, çiçəkli,
Əbədi məskənim, Şuşam, sən oldun!
Sağ ol, Şanlı Ordum-əsgər biləkli,
Dünyada tanınan bir Vətən oldun!

Uzandım yamyaşıl şehli sinənə,
Ələndi üstümə şeh sərin-sərin!
Duya bilməmişdim, ey doğma Vətən!
Şahlıq qüdrətini çəmənliklərin!

İndi duydum eşqin məhəbbətini,
Vətən nəğmələri göylərə uçdu!
Şuşadan görəndə qaçan düşməni -
Əsgərim, zabitim mənə qol açdı!

Öpdüm dodağımla qədim torpağı!
Sevincdən ağladım, sevindim, güldüm -
Eşqimi dünyaya yaymaq istərəm!
Səni ilahi bir torpağım bildim!

Ey şəhid qardaşım, yuxun nə şirin,
Azərbaycan adlı Vətən yenilməz!
Mənim sonsuz eşqim daha sənindir,
Gedirəm zirvəyə, izim bilinməz!

Mənəm, sənsən Vətən uğrunda güclü,
Qəlbimiz döyünür mətin, hünərvər.
Çiynimdə gəzdirdim topu-tüfəngi,
Lazımsa, olaram döyüşkən əsgər!

Vətən çəmənləri mənim oylağım,
Mən onu çox sevdim vətəndaş kimi!
Döyünən sinəmdə arzularım var,
Gücümüz sevgidir bir qardaş kimi!

Ömür yollarımız çiçəkli-güllü,
Bir Vətən naminə birləşmişik biz!
"Bayrağım ucalsın!", deyilən sözün -
Ahəngi dediyim şirin nəğməmiz!

* * *

Mənim poeziyam şəhidlər üçün,
Ürəkdən yazılıb hələ də coşur.
Hər şeir misram da ona təskinlik,
İgidlər hüsnünə şeirlər qoşur.

Ürəyim doludur, sözlə-söhbətlə,
Ömrümün dünyası şəhidə bağlı.
Şəhidlər, deyirəm bəzən özümə,
Mənim də hər günüm qaralı-ağlı.

Hər şəhid adına şeirlər yazdım,
Mənim də qəlbimdən süzülür mənə!
Yazdım adınızı könül dəftərə -
Minnətdaram müdam sevgiylə ona!

Amma, ötən döyüş ona güc verdi,
Aşdı dağlarda o, qayanı, daşı!
Ömür yollarında sevinc səsləri,
Səslədi vuruşa, dostu-qardaşı!

Vaxt oldu, düşmənə zərbə vuruldu,
Şuşamız əsgərdən salamlar aldı!
Cıdır düzündə də çadır quruldu,
Al bayraq durmadan hey dalğalandı.

Gözəllik Şuşama şeir bəxş etdi,
Coşdurdu ilhamı, cahargahımı!
Hər sözüm meydanda vuruşdu sözlə,
Ona əl çaldılar sevinən hamı!

Gözəl Şuşa, sinən üstə sirr yatır,
Qələm gərək döngələri düz yaza!
Hava gözəl, suyun təmiz, gözəllik -
İlham verir sinəmdəki avaza!

Qarabağ! Dağların gül-çiçək açdı,
ZƏFƏR nəğməsiylə düzü dolandı!
Əsgəri marşıyla dedi Komandan:
Bu gözəl: "Qarabağ Azərbaycandır!"

O böyük şəxsiyyət, o böyük insan,
Sözüylə inamı, İlhamı birdir!
Ali Baş Komandan, igid Prezident -
Dünyada kürsülər sərkərdəsidir!

Bilin, onun başqa baxışı vardır,
Dediyi kəlməni düşmən eşidir.
Onun döyüş tərzi, QƏLƏBƏ əzmi -
ZƏFƏR tarixində gördüyü işdir!

Yenilməz gücü var, "Dəmir yumruğ"un -
Vətəni naminə göydə şaqqıldar!
Onda Ulu Öndər tövsiyəsi var,
Onun cəsarəti dağları yarar!

Şuşada havalar təmizdən təmiz,
"İsa bulağı"na baş çəkdi əsgər.
Qalmadı yağıdan Şuşada bir iz,
İndi siz dağlara gedin, hər səhər!

Bizim dağların da gülü-çiçəyi,
Yaraşır ay Şuşam, hüsnünə sənin!
Xarıbülbülümün qönçəsi açıb,
O yaraşığıdır Ana Vətənin!

Sazımda oyanan söz qanad açır,
Açılır bizlərə məhəbbət yolu.
Vaqifin durnası səmada uçur,
ZƏFƏRə alqışlar beləcə olur!

Yüksəlir göylərə Vətən daşları,
Torpaqda yüksələn evlər bizimdir!
Hər daşda, qayada bax, izlərim var,
Qarabağ, baxdığım iki gözümdür!

Burda segahım var, muğam-tarım var,
Eşqimi, mahnımı bura gətirdim.
Şəhidə söz qoşan sənətkarım var!
Onlara yaraşan güllər bitirdim!

Ölmədi şəhidim, ürəklərdədir,
Odur qəhrəmanı obanın, elin!
Qarabağ sanki bir ilham pərisi,
Analar, yeni bir Vətənə gəlin!

Gəlin, birlikdə biz, gül-çiçək əkək,
Şəhidə yaraşan ətirlər gəlsin!
Qarabağ gözəli burda çiçəklə,
İgid əsgərimin qədrini bilsin!

Səcdələr etməyə sevgiylə gələk,
Baş əyək, ucalan başdaşlarına!
Azərbaycan gedir zirvəyə doğru,
Ordan boylanır o, qardaşlarına!

Hər gülüm, çiçəyim sənə məhəbbət,
Eşqimin bitməyir sözü, ilhamı.
Şəhidim, daha sən ucalıqdasan,
Bil, sənə baş əyir, əzm edir hamı!

Nənəmin duası sənədir, qardaş,
Məzarın hardadır, o da bilməyir.
Gecələr ağlayır, bilmirəm nədən?
Gözündən süzülən yaşı silməyir.

Kamanım ağlayır, sazım sızlayır,
Ömürdən, həyatdan oğul gedəndə.
Bu kövrək qəlbimin közü sozalır,
Ona layla çalır el də, Vətən də!

Bayatı deyirəm, mən dönə-dönə,
Bu anlar ömrümün bir baharıdır.
Hər ötən fəsilin, keçən ayların -
Mizrabı vurulmuş kaman, tarıdır!

Oğullar köç etdi Vətəndən, eldən,
Bu son ayrılıq da bizə dərd oldu.
İncimə ay nənə, hər ötən gündən,
Vaxtsız gələn ölüm yaman sərt oldu.

*(Davamı var)*